Məlumat üçün bildirək ki, bu məktəbin bərpası Avstriyanın “Hilfsverk Avstriya” təşkilatı, Gəncə Aqrobiznes Assosiasiyası (GABA) ilə birgə reallaşdırılan “Peşə məktəblərinin inkişafı” layihəsi və Azərbaycan Respublikası Prezidentinin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə qəbul edilmiş “Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)” çərçivəsində həyata keçirilib. Layihə Azərbaycan Respublikası Təhsil Nazirliyi, Məcburi Köçkünlərin Sosial Müdafiə Fondu və Cəbrayıl rayonu İcra Hakimiyyəti tərəfindən dəstəklənib.

Kənd təsərrüfatı istiqamətli olan bu təhsil müəssisəsində ilkin olaraq 90 nəfər tələbənin təhsil alması nəzərdə tutulur. Məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə 3 hektar ərazidə nümayiş sahəsi təşkil olunub.

Onu da qeyd edək ki, peşə məktəbində tədrislə məşğul olacaq müəllimlər üçün GABA tərəfindən 3 aylıq ixtisas kursu təşkil edilib. İxtisas kursunu müvəffəqiyyətlə bitirənlər sertifikatla təltif olunub. Onların müvafiq məktəbdə müəllim kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Eyni zamanda həmin müəllimlərdən üç nəfərinin ixtisaslarını artırmaq məqsədilə Avstriyaya 2 aylıq təkmilləşmə kursuna göndərilməsi planlaşdırılır.